## Uğurmu yoxsa uğursuzluq
## اوغورمو یوخسا اوغورسوزلوق

Tehran rejimi Ərəb Ələhvaz millətinin nəftindən və başqa millətlərin yer altı və yer üstü qaynaqlarindan əldə etdikləri milyadlarla dolları ölkənin,bu millətlərin rifah və gəlişməsinə xarcamaq yerinə , silahlamaya və belə yersiz təhlükəli bir sənaye üçün xarcayırlar.

Üsəlik bu terosist rejimin içtənliyi (mahiyyəti) nəzərə alındıqda, rejimin ana məqsədi ortaya çıxır. Rejim atom enerjisini önə çəkərək, həqiqətdə atom silahına əl tapma məqsədi güdür. O, belə düşünür ki, bu silahı əldə etməklə, cinayət və xəyanətlər üstündü qurulmuş rejimlərinin ömrünü uzda bilər. Rejim bu tutumu ilə İran adlanan Millətlər dusdağını bir Atom savaşı ilə qarşı-qarşıya gətirib, ölkəni və qonşularini zəhirləmək yolunda addımlamaqdadır. Orta şərq bölgəsi bir qan-qan çanağıdır. Bələ bir enerji sistemi bu məntəqə üçün yararından çox zərəri vardır. Qeyd edildiyi kimi məntəqə ekoloji baxımından elə bir səviyyədədirki, bütün enerji məsrəflerini Günəş ,yel və sicaqliq qaynaqlarindan təmin ede bilər , hatta xaricədə sadir etmə imkanı vadır.,

Burada Türkiyə fondamaentalistlərinin Türkiyə millətinə siraladıqları uğur, Həqiqətə məntəqə üçün Faciə və uğursuzluqdan başqa bir şey deyildir.

Biz Azərbaycanlılar Orta şərqidə hə çeşit olmasını istəyirik. Hətta **Qondarma Ermənistanda** olan atom santıralınında bağlanmasını tələb edirik. Bizə görə bu çeşid enerjiyə yiyələnmək Təhükə ilə yanaşı bu sənayein(texnikanın) törədicisi olan qərb və şərq ölkələrinə uzun vədəli bağlılıq deməkdir.

Bu teknikanı yaradan və işə salan , və dünyada bu sahədə ən başda gələn alim və təcröbəyə malik olna Alman, Bütün Atom enerji santrallarını 25- 30 il içində bağlama qərarini almışdır. Çünki onlar bu düzətimin(tolidin) xeyrindən çox zereri olduğu əməldə görmüşlər. Bu texnikanın təlükəli olması bir yanda qalsın , Bu düzətimdən çıxan **zəhirli zibillərin,** əmniyyətli şəkildə **neçə min il** saxlanılması, təbiətə yayılmaması, insanların sağalığına xəsarət yetiməsinin qarşısını almaq, ən təhlükəli və cidi məsələlərdən biridir. Başqa sözlə desək bu texnikanı ,sənayei yaradanlar özləri bu texnikanın əlində qalmışlar. Alman milləti bu texnikaya qrşı narazılığını mətbuatda hər bir seçgidə və bildir-məkdədir.

Belə bir durumda bizim məntəqədə, cahil ,nadan və bilimdən xəbərsiz olan Tehran terorist rejimi mənsubları təkcə bu qurşaq üçün yox , gələcək neçə min il qurşaqlar üçüdə təhlükəli hədiyə qoyub getmək istəyirlər. Erdoğan , Gül kimi dini fanatik və biliksizlərdə Tehran rejiminin yanında yer alıb, bu sənayei_texnikanı mudafiə edirlər. Bu onların siyasətdən xəbrsiz olduqlarını numayiş etdirməkdir. Çünki Türkiyənin qonşuluğunda olan belə bir təhlükəli şeyin ilk zərərini görenlərdən biridə Türkiyə milləti olacaqdır.

Təsüflə qeyd etməliyəm ki, Türkiyədə hakimiyyəti ələ keçirən Anti demokratik fondamentalistlər, bu uzqdan gələn zərəri görmək istəmirlər. Çünki dini fanatizm həqiqətləri görməyə imkan veremir. Bu ağalarda yandaşları kimi Türkiyə millətinin uzun vədəli çıxarları açısından yox , öz miz və sandallarını qorumaq açısından hərəkət edirlər, Türkiyəni daha fəlakətli bir yerə aparırlar. Görünüşdə diplomatik oyunlara əl atıb, millətin başın qarışdırıb , və bu oyunları Türkiyənin xarici siyasətdə uğuru kimi göstərirlər, əslində isə bunlar Türkiyə üçün ən Uğrsuzluqlardır. Bu oyun Qondarma Ermənistan siyasəti üçündə keçərlidir.bu Erdoğan və Gülün Ak partisinin Türkiyə millətinə etdiyi başda gələn xəyanətlərdən biri sayılır.

uzaq olasaydılar, İrana mudaxilədən

uzaq olasaydılar, İrana mudaxilədən
qorxmazdılar. Əksinə Əraqda etdikləri xətadan dərs almış olardılar. Çünki İrana mudaxilə güney Azərbaycanın müstqilliyi şansını özü ilə gətirə bilər. Bu 50 milyonluq ikinci bir Türk dövlətinin Türkiyə qonşuluğunda olması deməkdir. Bu Türkiyə üçün uğur sayılardı. Türkiyə və Türk dünyası üçün yararlı olardı. Amma Ankaradaki Ak partılılar, məsələlərə Türkiyə və Türk milləti açısından yox, öz dar görüş dini fanatizmləri açısından baxırlar. Və Tahrandaki fikirdaşları kimi hakimiyyətlərini qorumq istəyirlər. Atatürk Türkiyəsində 70 ildən sonra belə bir Partının və şəxsilərin hakimiyyətdə olmlsı Türkiyə və Türk dünyası üçün böyük bir faciə sayılır.

## خورداد قیامی نین ایلدونومو
## XORDAD QİYAMININ İLDÖNÜMÜ

رئژیمی یوخ ، اونلاری حاکمییته گتیره ن اربابلارینی، و سوزده ایران آدلانان یئرین موخالیفتینی بئله قورخویا سالمیشدیر. بو سوزده سئچگی تیاتروسوندان سونرا یاشیل آدی ایله جماعتی خیاوانلارا توکنده ده، میللتیمیزین بو اویونلارا قاتیلماماسی، میللتیمیزین آییقلیغینی و ذکاوتینی گوستریر. اونلار خمئینی کیمی بیر جلادی شاهین یئرینه گتیردیلری کیمی، بو دفعه ده یاشیل آدینا بو رئژیمین پایاسینی قویان ، اللری دیرسه یه قده ر قانا بولاشمیش صادیق نوکرلرینی دئموکراسی آدی ایله یئنه باشا چیخارماق ایسته ییردلر. چونکی بو اربابلار یالنیز و یالنیز اوز سیاسی ، ایقتیصادی و ایستیرتئژیک منافعلرینی دوشونورلر. بونا گورده اوز تبلیغات اورقانلارینی بونا حصر ائتمیشدیلر. حتا بی بی سی ، سی ائن ائن 24 ساعات پروگراملارینی بو دفعه ده، خمئینی نین کتیریلمه سینده اولدوغو کیمی، بو یئنی اویونون ایختیاریندا قویموشدولار.ایران آدلانان یئرده دئمکراسی و اینسان حاقلاریندان دانشیردیلار . آمما بو اورقانلار ، آوروپالیلار و حتا اوزونو تورک دونیاسی نین باشچیسی بیله ن تورکیه ده کی گئریجی (دینی فوندامنالیست) آغ

آردي ۴- نجۆ پاپراقدا